# XUDAFƏRİN

"Xudafərin harayından qalan mən!.."



*Qəzet 1932-ci ildən çıxır* № 13-14 (6805-6806) 28 dekabr 2018-ci il Cəbrayıl RİH-nin orqanı


## 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik günüdür

# Yeni İliniz mübarək!



### Dünya azərbaycanlılarına!

**Əziz həmvətənlər!**
**Hörmətli soydaşlar!**

Milli birliyimizin rəmzi kimi hər il geniş qeyd etdiyimiz 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə sizi səmimi qəlbdən salamlayır, hamınıza xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideyalarını yaşadan müstəqil dövlətimiz milli həmrəyliyin gücləndirilməsinə xüsusi əhəmiyyət verir, dünya azərbaycanlılarının mədəni-mənəvi birliyinin daha da möhkəmləndirilməsi ilə bağlı ardıcıl tədbirlər həyata keçirir. Biz xarici ölkələrdə məskunlaşmış həmvətənlərimizin doğma Azərbaycanla əlaqələrinin dərinləşdirilməsi və ümummilli məsələlərin həllində yaxından iştirakının təmin edilməsi istiqamətində irəli sürülən səmərəli təşəbbüslərə hər zaman dəstək veririk.

2018-ci il xalqımızın tarixində şərəfli yer tutan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin geniş şəkildə keçirilməsi ilə yaddaşlarda qalacaqdır. Belə əlamətdar yubileyin təntənə ilə qeyd edilməsi həmvətənlərimizin qəlbində azadlıq və istiqlal duyğularını, ölkəmizin zəngin tarixi ilə haqlı iftixar hissini daha da gücləndirir. Bu gün əminliklə demək olar ki, 100 il əvvəl mühacir həyatı yaşamağa məcbur olmuş Cümhuriyyət qurucularının və onların varislərinin Azərbaycanı müstəqil və qüdrətli dövlət kimi görmək arzuları artıq xoş gerçəkliyə çevrilmişdir.

Dünyada gedən mürəkkəb geosiyasi proseslərə, müharibə və silahlı qarşıdurmalara, qaçqın və məcburi köçkün problemlərinə, qlobal iqtisadi çətinliklərə baxmayaraq, Azərbaycan Respublikası qarşıya qoyduğu böyük məqsədlərə doğru inamla irəliləyir. Ölkəmizin sosial-iqtisadi sahədə əldə etdiyi uğurların nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilməsi bunu bir daha əyani surətdə sübut edir. Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan ötən illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşmış, 10 ən islahatçı dövlət siyahısına daxil edilmişdir. Ölkəmizin təşəbbüsü və yaxından iştirakı ilə irimiqyaslı transmilli layihələr uğurla icra olunmuşdur. 2018-ci ildə Avrasiyanın enerji xəritəsinin zənginləşməsində mühüm rol oynayan "Cənub Qaz Dəhlizi"nin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin istifadəyə verilməsi, həmçinin Ələt-Astara magistral avtomobil yolunun açılışı ilə Azərbaycan ərazisində "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi layihəsi üzrə bütün işlərin başa çatdırılması dövlətimizin iqtisadi potensialının artması, regionun tranzit və logistika mərkəzinə çevrilməsi, geoiqtisadi mövqeyinin güclənməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Cari ildə həm də növbəti telekommunikasiya peyki "Azerspace-2"nin orbitə buraxılması respublikamızın müasir rabitə və informasiya texnologiyaları sahəsində qazandığı nailiyyətlərin bariz təzahürüdür.

Ölkəmiz inkişaf etdikcə, daha qlobal xarakterli vəzifələri həll etmək imkanları da artır. Qarşımızda Ermənistanın hərbi təcavüzü nəticəsində işğal edilmiş torpaqlarımızın azad olunması kimi taleyüklü vəzifə dayanır. Azərbaycan pozulmuş ərazi bütövlüyünün bərpası yolunda ardıcıl və məqsədyönlü siyasət həyata keçirir. Soydaşlarımız da, öz növbəsində, yaşadıqları ölkələrin yüksək dairələrinin və nüfuzlu beynəlxalq təşkilatların diqqətinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə yönəldilməsində, tarixi həqiqətlərin geniş ictimaiyyətə çatdırılmasında fəallıq nümayiş etdirməlidirlər. Azərbaycanın inkişafı və dünya birliyində mövqeyini möhkəmləndirməsi üçün hər bir həmvətənimiz ümummilli məqsədlər ətrafında sıx birləşməli, diaspor təşkilatlarının fəaliyyəti daha çevik əlaqələndirilməlidir. Əminəm ki, dünyanın hansı guşəsində yaşamasından asılı olmayaraq, bütün soydaşlarımız və həmvətənlərimiz bu prinsiplərə əsaslanaraq qarşıdakı illərdə də üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsində qüvvə və bacarıqlarını əsirgəməyəcəklər.

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə səadət, firavanlıq və işlərinizdə uğurlar diləyirəm!

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV,**
**Azərbaycan**
**Respublikasının Prezidenti.**

***Bakı şəhəri,***
***25 dekabr 2018-ci il.***

## Cəbrayıllıların Yeni İl şənliyi





Dekabrın 27-də rayon ziyalıları, ağsaqqallar, ictimaiyyət nümayəndələrinin iştirakı ilə 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni il münasibəti ilə bayram tədbiri keçirildi.

Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov bayram tədbirini açdı, yığıncaq iştirakçılarını xalqımızın birlik və mütəşəkkillik rəmzi olan 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni il bayramları münasibəti ilə təbrik etdi.



İcra Hakimiyyətinin başçısı 2018-ci ildə rayonda həyata keçirilmiş sosial-iqtisadi layihələr və qarşıda duran vəzifələrdən ətraflı söhbət açdı, qarşıdan gələn Yeni ildə camaatımıza sağlamlıq, firavanlıq və doğma Cəbrayılımıza qayıtmaq arzuladı.

Bayram tədbiri rayonun incəsənət ustalarının konsert proqramı ilə davam etdirildi.

## Cocuq Mərcanlıda "Qayıdış" parkı istifadəyə verildi

Dekabr ayının 23-də Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində salınmış "Qayıdış" parkının açılış mərasimi keçirilmişdir.



Tədbirdə Cəbrayıl və qonşu rayonların ictimaiyyət nümayəndələri, rayon ziyalıları, ağsaqqallar, kənd sakinləri və ərazidəki "N" saylı hərbi hissənin əsgər və zabitləri iştirak edirdilər.

**(Ardı səh.3-də)**







# Anım tədbiri keçirilmişdir

**Dekabrın 12-də Cəbrayıl rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin vəfatının 15-ci ildönümü ilə əlaqədar anım tədbiri keçirilmişdir.**

Tədbirdə rayon İcra hakimiyyətinin, YAP rayon təşkilatının, hüquq-mühafizə orqanlarının, idarə və müəssisə rəhbərləri, ziyalılar, ictimaiyyət nümayəndələri iştirak edirdilər.

Tədbir iştirakçıları 4 saylı qəsəbə ərazisindəki Mədəniyyət və İstirahət Parkında ucaldılmış Ümummilli Lider Heydər Əliyevin heykəli önünə gül dəstələri qoymuş, dahi şəxsiyyətin əziz xatirəsini ehtiramla yad etmişlər.

*”Xudafərin”*

# ”Bayraq mənliyimdir, bayraq kimliyim...”



9 Noyabr Dövlət Bayrağı Günü hər yerdə olduğu kimi İ. Tahirov adına Mehdili kənd tam orta məktəbində də geniş qeyd olundu.Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başladı. Jurnalist Araşdırmaları Mərkəzinin sədri, tanınmış jurnalist, həmyerlimiz Seymur Verdizadə tədbiri açaraq Dövlət Bayrağımızın yaranma tarixindən, onun hər bir vətəndaşımız üçün qürur mənbəyi olduğundan danışdı. Qeyd etdi ki, bu bayramı sizinlə - məktəblilərlə birgə qeyd etməyimiz təsadüfi deyil. Çünki dövlət rəmzlərinə, o cümlədən bayrağımıza sevgi məhz məktəbdə aşılanır. Bu tədbir öncəsi sizlərdən hər birinizə hədiyyə edilmiş bayraqlara olan sevginiz gözlərinizdən oxunur.



Həmyerlimiz, Azərbaycanın Milli Qəhrəmanı Vahid Quliyev çıxış edərək bildirdi ki, bayrağımız dövlətçiliyimizin rəmzidir. O bayrağın yüksəklərdə daimi dalğalanması üçün çox sayda şəhidlər vermişik. Bu bayramın bir də əlamətdarlığı ondan ibarətdir ki, Dövlət Bayrağımızın dövlət rəmzi kimi qəbul olunmasından 100 il ötür. Bayraq bizim qürur, iftixar mənbəyimizdir. Bayrağa məhəbbət Vətənə məhəbbət, bayrağa sevgi millətə sevgidir. Bunu heç vaxt unutmaq olmaz.

Tədbirdə çıxış edən Cəbrayıl Rayon İcra Hakimiyyəti Başçısının müavini Fəridə xanım İbayeva tədbir iştirakçılarını salamlayaraq bayram münasibəti ilə onları təbrik etmiş, üçrəngli Azərbaycan bayrağının tezliklə doğma Cəbrayıl və işğal olunmuş digər vətən torpaqlarında dalğalanmasını arzulamışdır.



Fəridə xanım çıxışında qeyd etmişdir ki, respublikamızın dövlət bayrağı müstəqil Azərbaycan dövlətinin suverenliyinin rəmzidir. 2009-cu il noyabr ayının 17-də Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev cənabları ”Azərbaycan Respublikasının Dövlət Bayrağı gününün təsis edilməsi haqqında” Sərəncam imzalayıb. Bu bayraq 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyətinin iclasında qəbul edilib. 1920-ci ilin aprel ayınadək dövlət statusuna malik olub. Həmin bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı olaraq təsdiq edilib. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti ”Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında ” qanun qəbul edərək onu Dövlət bayrağı elan edib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasın Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının üzvü Emin Həsənli, Azərbaycan Beynəlxalq Dostluq Mərkəzinin sədri Babək İsmayılov, ”Ortaq dəyərlər” İctimai Birliyinin sədri Aqil Camal, rayon Mərkəzi Xəstəxanasının baş həkimi Hüseyn Əhmədov, məktəbin təşkilatçı müəllimi, Qabaqcıl təhsil işçisi Hidayət Səfərli çıxış edərək tədbir iştirakçılarını bayram münasibətilə təbrik etdilər, onlara təhsildə və şəxsi həyatlarında uğurlar arzuladılar. Bayraq haqqında qürurverici sözlər söylədilər.

Vətənpərvərlik mahnılarının mahir ifaçısı Şəmistan Əlizamanlının ifasında səslənən mahnılar hər kəsə xoş ovqat bəxş etdi.

Məktəblilərin ifasında Azərbaycan bayrağına həsr olunmuş rəngarəng şeir və mahnılar ifa olundu.

Tədbir iştirakçıları daha sonra Cocuq Mərcanlıya yola düşdülər, orda məktəb kollektivi, kənd sakinləri və əsgərlərlə görüşdülər.

*”XUDAFƏRİN”*

# Kənd təsərrüfatına həsr olunmuş tədbir



**”1 Noyabr - Kənd təsərrüfatı işçilərinin peşə bayramı günü” ilə əlaqədar tədbir keçirilmişdir.**

Rayon icra Hakimiyyətinin akt zalında keçirilən tədbirdə çıxış edən rayon İcra Hakimiyyətinin başçısı vəzifəsini icra edən Arif Fərzəliyev son illərdə respublikamızda kənd təsərrüfatı sahəsində görülmüş işlər və bu sahədə əldə edilmiş uğurlar haqqında məlumat verdi.

A.Fərzəliyev çıxışında Ölkə Prezidenti İlham Əliyev cənablarının rəhbərliyi ilə kənd təsərrüfatına diqqət və qayğının artdığını, ənənəvi kənd təsərrüfatı məhsullarının pambıqçılıq, ipəkçilik, tütünçülük, üzümçülük və sair əkin sahələrinin genişləndirilməsinin xalqımızın çox böyük rəğbətinə səbəb olduğunu qeyd etdi. Bunun da özlüyündə ərzaq təhlükəsizliyinin təminatı və əhalinin məşğulluğunun təmin olunmasına ölkə başçısının töhfəsi olduğunu bildirdi.

Peşə bayramı münasibəti ilə rayonun kənd təsərrüfatı işçilərini təbrik edən A.Fərzəliyev çətin və şərəfli işlərində onlara uğurlar arzuladı.

Rayon İcra Hakimiyyəti adından Cəbrayıl Aqrar İnkişaf Mərkəzinin direktoru Şahin Şirinova təbrik məktubu təqdim olundu.

Tədbirdə çıxış edən Ş.Şirinov göstərilən diqqətə görə minnətdarlığını bildirdi, Respublika Prezidenti İlham Əliyev cənablarının kənd təsərrüfatı işçiləri qarşısında qoyduğu vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcəklərini vəd etdi.

Tədbirdə digər çıxış edənlər də kənd təsərrüfatına göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə öz minnətdarlıqlarını ifadə etdilər.

*"Xudafərin"*

# Baramaçılıq inkişaf etdirilir



Cəbrayıl rayonunda baramaçılığın inkişaf etdirilməsi üçün yaxşı ənənə və böyük potensial var. Uzun illər baramaçılıqla məşğul olmuş Cəbrayıllı kümdarlar tədarük etdikləri baramanın məhsuldarlığına və keyfiyyətinə görə respublikada öncül yerlərdə olmuşlar.

Rayonun ərazisi işğal edildikdən sonra bu sahəyə diqqət azalmış, xüsusən ipək qurdunun bəslənməsi üçün müvafiq yerlərin, yem bazasının sıradan çıxması kənd təsərrüfatının gəlirli sahələrindən biri olan baramaçılığa marağı azaltmışdır.

İpəkçiliyin inkişafına dövlət dəstəyinin gücləndirilməsi Cəbrayıl rayonunda ənənəvi sahələrdən olan baramaçılığın dirçəldilməsinə öz müsbət təsirini göstərməkdədir. Təsadüfi deyil ki, son iki ildə rayonda kənd təsərrüfatının bu sahəsinə maraq göstərənlərin sayı xeyli artıb.

Bunu nəzərə alaraq sakinlərimizin məşğulluğunun təmin edilməsi, kənd təsərrüfatının gəlirli sahələrindən biri olan baramaçılığın inkişaf etdirilməsi məqsədi ilə son illərdə rayonumuzda bir sıra məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

İlkin mərhələdə ipəkqurdu üçün yem bazasının yaradılması məqsədi ilə 2016-17-ci illərdə respublikamıza Çin Xalq Respublikasından idxal edilmiş 20000, daxili istehsaldan isə 13000 ədəd olmaqla ümumilikdə 33000 ədəd tut tingi rayona gətirilmiş və sakinlər arasında bölünərək əvvəlcədən bu məqsəd üçün ayrılmış torpaq sahələrində əkilməsi təmin edilmişdir.

Yem bazası yaradıldıqdan sonra 2017-ci ildə ilk dəfə olaraq Qax Damazlıq Baramaçılıq Stansiyasından gətirilmiş 500 qram ipəkqurdu toxumu rayondan olan 33 kümçü arasında paylanılmışdır.Uzun illərdən sonra ilk dəfə ipəkqurdu saxlayan rayon sakinləri ümumilikdə 1 ton 413 kiloqram barama tədarük edərək ”Azəripək” MMC-yə təhvil vermişlər.

Baramaçılığın inkişafına göstərilən dövlət dəstəyi Cəbrayıllı kümdərlərin bu sahəyə marağını xeyli artırmış, onlar əvvəlki illərlə müqayisədə bu il ipəkqurdu bəsləməyə daha çox maraq göstərmişlər.

Bunu nəzərə alaraq rayon İcra Hakimiyyətində aidiyyəti idarə və təşkilatların nümayəndələrinin və fermerlərin iştirakı ilə geniş müşavirə keçirilmiş, ötən ildə görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə edilmişdir. Ötən ilki mövsümdə əldə edilmiş yüksək nəticənin bu il daha da yaxşılaşdırılması üçün bu sahəyə məsul şəxslərə konkret tapşırıqlar verilmişdir.

İpəkqurdu üçün yem bazasının genişləndirilməsi məqsədi ilə cari ilin dekabr ayında dövlət vəsaiti hesabına rayonumuz üçün ayrılmış 51 min ədəd yerli və Çin Xalq Respublikasından ölkəyə idxal edilmiş 27 min ədəd tut tingi rayona gətirilmişdir. Tinglər müəyyən edilmiş bölgü əsasında baramaçılıqla məşğul olacaq sakinlərə paylanmış, onlar üçün əvvəlcədən ayrılmış sahələrdə əkilmiş və becərilməsi nəzarətə götürülmüşdür.

# Səyyar görüş-qəbulları keçirilmişdir



Sumqayıt şəhərindəki Cəbrayıl rayon 6 saylı tam orta məktəbdə Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənovun səyyar qəbulu keçirilmişdir. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə görülən işlərdən ətraflı söhbət açan Kamal müəllim eyni zamanda rayonun sosial-iqtisadi inkişafı, əhalini narahat edən problemlərin həlli istiqamətində həyata keçirilən tədbirlər barədə də ətraflı məlumat verdi.



Həmçinin onu da qeyd etdi ki, bir vaxtlar Ulu Öndər Heydər Əliyevin məcburi köçkünlərə göstərdiyi diqqət-qayğı bu gün cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Sonra sakinlər mənzil şəraitinin yaxşılaşdırılması və digər sosial yönümlü məsələlər barəsində rayon İcra Hakimiyyətinin başçısına müraciət etdilər.

Səyyar qəbulda əhalini narahat edən müxtəlif məsələlərə rayon rəhbəri aydınlıq gətiriib, müvafiq izahatlar verdi.

Qəbulda RİH-nin məsul işçiləri, RİH başçısının inzibati ərazi dairəsi üzrə nümayəndələri iştirak edirdilər.

***

Qaradağ rayonu, Qobu Park yaşayış kompleksində də Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənovun vətəndaşlarla səyyar qəbulu keçirilmişdir.



Qobu park yaşayış kompleksinin bünövrəsinin Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə 31 may 2017-ci ildə qoyulduğunu, 28 may 2018-ci ildə isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən açılışının edildiyini diqqətə çatdıran Kamal Həsənov yeni mənzil alanları təbrik etdi. Bildirdi ki, qəzalı şəraitdə olan binalardan, ağır vəziyyətdən gözəl şəraiti olan evlərə məhz ölkə rəhbərinin qayğısı ilə köçürülmüsünüz. Cocuq Mərcanlıda da belə yaxşı mənzillərlə camaatın təmin olunduğunu bildirən K. Həsənov əminliklə vurğuladı ki, digər torpaqlarımız da yaxın gələcəkdə işğaldan azad olunacaq. Onda da belə bir ənənə uğurla davam etdiriləcək.

Tibb məntəqəsinin, apteklərin olmaması və sair sosial yönümlü məsələlərlə bağlı edilən müraciətlərə rayon İcra Hakimiyyətinin başçısı aydınlıq gətirdi.

Cəbrayıl rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə görüşdə iştirak edən Azərbaycanın Milli Qəhrəmanı Niyazqullar kəndindən olan Vahid Quliyev keçdiyi həyat yolundan, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə hazırda Azərbaycan Ordusunun regionun ən güclü ordusu olmasından, aprel döyüşlərinin bizim şanlı hərbi qələbəmizdən, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbəsindən, aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərdə Azərbaycan bayrağı dalğalanmasından, ordumuzun əlverişsiz mövqelərindən əks-hücum əməliyyatı apararaq strateji mövqelərə sahib olmasından və s. geniş danışdı.

Qəbulda RİH-nin məsul işçiləri, RİH başçısının inzibati ərazi dairəsi üzrə nümayəndələri iştirak edirdilər.



***

**Cəbrayıl rayon İcra hakimiyyətinin başçısı Kamal Həsənovun Kürdəmir rayonunda məskunlaşmış Cəbrayıllı məcburi köçkünlərlə səyyar qəbul-görüşü keçirilib.**

Səyyar qəbulda çıxış edən İcra Hakimiyyətinin başçısı Kamal Həsənov rayonun sosial-iqtisadi inkişafı, əhalini narahat edən problemlərin həlli istiqamətində həyata keçirilən tədbirlər barədə danışıb. Keçirilən bu cür səyyar qəbul-görüşlərin respublikanın müxtəlif bölgələrində məskunlaşmış sakinlərimizin qayğı və problemlərinin yerindəcə öyrənilməsi və operativ həllinə geniş imkan yaratmaq məqsədi daşıdığını bildirib.



Görüşdə rayon sakinləri Qədir Sevdimalıyev, Nubar Fərzəliyeva, Oruc Feyzullayev və başqaları çıxış edərək onları narahat edən məsələlərlə bağlı köməklik göstərilməsini xahiş etdilər.

Sakinləri narahat edən müxtəlif məsələlərə rayon rəhbəri tərəfindən aydınlıq gətirildi, müvafiq izahatlar verildi və qaldırdıqları məsələlərin həlli istiqamətində əlaqədar qurum və təşkilatların rəhbərlərinə tapşırıqlar verilərək, onların həlli nəzarətə götürüldü.

" Ł "

## Cocuq Mərcanlıda"Qayıdış" parkı istifadəyə verildi

(Əvvəli səh. 1-də)



Ümumi ərazisi 1,4 hektar olan parkda dekorativ hovuz, kafe, ekranlı səhnə, futbol meydançası, uşaqlar üçün meydança, dayanacaq və sanitar qovşaq inşa edilib. Parkda yaşıllıqlar salınıb, müxtəlif növ ağaclar, dekorativ kollar, gül və çiçəklər əkilib, oturacaqlar quraşdırılıb.

Tədbiri giriş sözü ilə açan Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov qonaqları salamladı, işğaldan azad edildikdən sonra kənddə aparılmış abadlıq, quruculuq işləri haqqında məlumat verdi.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə kənddə istifadəyə verilən Mədəniyyət və istirahət parkının "Qayıdış" adlandırılmasının Qarabağa böyük qayıdışın başlanğıcı kimi rəmzi məna daşıdığını qeyd etdi.

Ziyalılar adından çıxış edən əməkdar elm xadimi, professor Həsən Hüseynov parkın açılışı münasibəti ilə rayon ictimaiyyətini və Cocuq Mərcanlı sakinlərini təbrik etdi. Qısa müddətdə kənddə aparılmış yenidənqurma işlərinin dövlətimizin məcburi köçkünlərə qayğısının bariz nümunəsi olduğunu bildirdi.

Tədbirdə çıxış edənlər Cocuq Mərcanlıya göstərilən dövlət qayğısından, kəndin bərpası və inkişafı, sakinlərin məşğulluğunun təmin edilməsi istiqamətində həyata keçirilən layihələrdən danışdılar. Bildirildi ki, bu gün Cocuq Mərcanlıda həyat öz axarı ilə davam edir. Məcburi köçkünlük həyatına son qoyaraq doğma kəndlərindəki abad və yaraşıqlı mənzillərində firavan həyata başlayan Cocuq Mərcanlı sakinləri uzun illər həsrətini çəkdikləri torpağı əkib-becərir, gündəlik məişət qayğıları ilə məşğul olurlar. Sakinlərin kənd təsərrüfatının ayrı-ayrı sahələrində çalışmaları, əkin üçün verilmiş torpaqlarda təsərrüfat işləri ilə məşğul olmaları üçün lazımi dəstək göstərilib. Azərbaycan Prezidentinin müvafiq sərəncamları əsasında Cocuq Mərcanlı kəndində əkinlərin suvarma suyu ilə təmin olunması üçün nasos stansiyası, suvarma kanalı inşa edilib. Kəndin ətrafındakı sahələr uzun illərdən sonra əkin dövriyyəsinə cəlb edilib. Cocuq Mərcanlı kəndində istixanalar və arıçılıq təsərrüfatları, yem emalı müəssisəsi yaradılıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilən özünüməşğulluq proqramına cəlb edilən 25 ailəyə mal-qara verilib. Hazırda kənddə suvenir istehsalı müəssisəsi inşa edilir. Bundan başqa 150 başlıq cins heyvandarlıq kompleksinin inşası da nəzərdə tutulub.Kənd sakinləri göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirdilər.

Tədbirin bədii hissəsində rayonun tanınmış mədəniyyət və incəsənət ustaları maraqlı konsert proqramı ilə çıxış etdilər.

**"XUDAFƏRİN"**

## Cocuq Mərcanlıda 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik günü və Yeni İl münasibəti ilə tədbir keçirilmişdir





**Dekabrın 26-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, "Təmiz ürək" İctimai Birliyi və Cəbrayıl Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibəti ilə Cəbrayıl rayonu Cocuq Mərcanlı kəndində tədbir keçirilib.**

Tədbir iştirakçıları əvvəlcə "Aprel şəhidlərinə xatirə" abidə kompleksini ziyarət ediblər, önünə gül dəstələri qoydular.

Sonra Cocuq Mərcanlıya gələn qonaqlar kənddə aparılmış abadlıq quruculuq işləri ilə tanış olub, "Qayıdış" parkı, yay kinoteatrı və asudə vaxt kafeteriyası, eləcə də Prezident İlham Əliyevin tapşırığına əsasən Cocuq Mərcanlı kəndində Şuşa məscidinin bənzəri olaraq inşa edilən kənd məscidini də ziyarət etdilər.

Novruz Aslanov adına kənd tam orta məktəbin kollektivi ilə görüşən qonaqlar məktəbin foyesində kənddə aparılmış abadlıq-quruculuq işləri barədə stendlərlə baxdılar, məktəbin kitabxanasına kitablar hədiyyə etdilər.

Klub İcma Mərkəzində keçirilən tədbiri giriş sözü ilə açan rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov qonaqları salamlayaraq kəndin bərpası ilə bağlı görülmüş işlər barədə ətraflı məlumat verdi, Ölkə Prezidenti cənab İlham Əliyevin tapşırığı əsasında Cocuq Mərcanlıda qısa müddətdə müasir, bütün infrastruktura malik qəsəbə salındığını qeyd etdi.

Tədbirdə Azərbaycan Respublikası Prezidenti Katibliyinin rəisi-Prezidentin köməkçisi Dilarə Seyidzadə, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, YAP Qadınlar Şurasının sədri, Bakı Slavyan Universitetinin rektoru Nurlana Əliyeva çıxış etdilər.

Qarşıdan gələn bayramlar münasibəti ilə kənd sakinlərini təbrik edən çıxışçılar qeyd ediblər ki, Dağlıq Qarabağ bizim əzəli tarixi torpağımızdır, əsrlər boyu xalqımız bu torpaqlarda yaşayıb. Uzun illər boyu torpaqlarımız mənfur qonşular tərəfindən işğal altında saxlandığından tarixi abidələrimiz məhv, təbii sərvətlərimiz talan edilmişdir. 2016-cı ilin Aprel döyüşləri zamanı Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əks-hücum hərbi əməliyyatı nəticəsində erməni işğalından azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində insanların təhlükəsiz yaşaması mümkün olmuşdur.

(Davamı səh. 6-da)





# “İstiqlal” muzeyində Şikar Aslanov anıldı

*Noyabrın 2-də Azərbaycan İstiqlal Muzeyinin və Cəbrayıl rayon Tarix-Diyarşünaslıq muzeyinin birgə təşkilatçılığı ilə Azərbaycanın Milli Qəhrəmanı Şikar Davud oğlu Aslanova həsr olunmuş "Vətən sənə oğul dedi" adlı tədbir keçirilib. Dövlət Himnimizin səsləndirilməsilə başlanan tədbiri Biləsuvar Regional Mədəniyyət İdarəsinin rəisi Elçin Hüseynov açdı. Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Rayon Tarix-Diyarşünaslıq muzeyinin direktoru Tariyel Abbaslı tədbiri aparmaq üçün kürsiyə dəvət olundu. O, burada Şikarın dostlarının, qohumlarının, qardaşı Mükafat müəllimin, Biləsuvar Regional Mədəniyyət İdarəsinin Cəbrayıl rayonu üzrə nümayəndəsi Kamran Quliyevin, polis polkovnik-leytenantı Fazil Bəhramovun, polis kapitanı Başir Ərşad oğlunun və digər qonaqların iştirak etdiyini diqqətə çatdırdı. Tədbirin keçirilməsinə təşkilati dəstək verdiyinə görə İstiqlal Muzeyinin direktoru Fəridə xanım Şəmsiyə minnətdarlıq duyğularını ifadə etdi.*



Azərbaycanın Milli Qəhrəmanı Şikar Aslanov 1970-ci il iyun ayının 10-da Cəbrayıl rayonunun Süleymanlı kəndində doğulmuşdur. İlk təhsilini burada alan Şikar 1987-ci ildə məktəbi bitirir. 1988-ci ildə sovet ordusuna hərbi xidmətə çağırılır. 1990-cı ildə doğma vətənə dönərək DİN-in post patrul xidmətinə qəbul olunur. Erməni işğalçılarının vətənə basqını zamanı Şikar silaha sarılaraq cəbhəyə yollanır. 1992-ci ildə Xocavənd rayonunda gedən döyüşlərdə düşmənin atəş nöqtələrini peşəkarcasına susdurur. 1992-ci ilin 2 iyulunda əməliyyat zamanı Şikar snayper gülləsinə tuş gəlir, cəsur döyüşçünü hospitala çatdırsalar da, onun həyatını xilas etmək mümkün olmur, vətənimizin igid oğlu əbədi olaraq gözlərini yumur. Doğulduğu Süleymanlı kəndində dəfn edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Aslanov Şikar Davud oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.



Şikar Aslanovun döyüş yoldaşları -I qrup Qarabağ müharibəsi əlili Nübarək Sevdimalıyev, Şikar Aslanovun komandiri, keçmiş polis rəisi polkovnik Vaqif Məhərrəmov, polis mayoru Rəfayıl Abbasov, polis mayoru Rafiq Bayramov, keçmiş döyüşçü hərbçi baş leytenant Mehman Hüseynov keçmiş olduqları şanlı və qanlı-qadalı döyüş yollarından və Şikarla bağlı xatirələrindən söz açdılar.

Şairə Mətanət Ulu Şirvanlı, mahir şeir ifaçıları Hacı Məhəmməd Hüseynov , Mehman Mayılxanlı, 158 saylı orta məktəbin 4-cü sinif şagirdləri Ayşə Abbaszadə, Nuray Səfiyeva, Ayna İsayeva Şikar Aslanovun xatirəsinə həsr olunmuş qəhrəmanlıq ruhlu şeirləri səsləndirdilər. Şair İsmayıl İmanzadənin Şikarın qəhrəmanlığı ilə bağlı yenicə yazdığı "Yenilməz əsgər" şeiri də Hacı Məhəmməd Dayanduroğlunun ifasında iştirakçılara çatdırıldı.

Rayon Tarix-Diyarşünaslıq muzeyinin fond müdiri, şəhid bacısı Aytən Fətullayeva o vaxt rayonda tibb bacısı işləmiş anasının söylədiklərinə əsaslanaraq Şikarın həyatının son anlarında belə əzmkar bir ruhla həyata vida deməsini xatırlatdı.



Şikar Aslanova həsr olunmuş sənədli film də nümayiş etdirildi.

Milli Qəhrəmanın qardaşı Mükafat Aslanov tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlıq hisslərini çatdırdı.

Cəbrayıl rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən cənab Arif Fərzəliyev çıxışında dedi ki, bu gün əsgər gedən gənclərimizi "Qəhrəmanlıq sənin haqqındır, əsgər!" devizi ilə hərbi xidmətə yola salırıq. Vaxtilə "bir türk əsgəri dörd fransız əsgərinə bərabərdir" deyimi vardı. İndi isə Əfqanıstanda döyüşən Azərbaycan əsgərlərinə rəğmən deyirlər ki, "bir azəri əsgəri beş amerikan əsgərinə bərabərdir". Bu mənada bizim xalq qəhrəmanlar yetirən xalqdır. Milli Qəhrəmana həsr olunmuş bu cür tədbirlər silsilə hal almalı və məktəblərimizdə keçirilməlidir. Bu gün həyatda yaşayan Milli Qəhrəman Vahid Quliyevlə məktəblilərimizin görüşləri təşkil edilməlidir ki, şagirdlərimizdə milli vətənpərvərlik əhval-ruhiyyəsi yüksək səviyyədə inkişaf etdirilsin. Bu, həm də Mübariz İbrahimov kimi canlı qəhrəmanlıq örnəyi göstərə bilməkdə şagirdlərdə əyani təəssürat yaradıb formalaşdırır.

Arif Fərzəliyev onu da qeyd etdi ki, " Xudafərin" qəzetində Milli Qəhrəmanlara həsr olunmuş reportajların verilməsi də, Cocuq Mərcanlı ilə bağlı xəbərlərə vaxtaşırı yer verilməsi də məhz vətənpərvərlik mövzusunun təbliği-təşviqi məsələlərinə xidmət edir.



Arif müəllim çıxışının sonunda əminliklə vurğuladı ki, Ali Baş Komandan, respublika prezidenti İlham Əliyev Cənablarının rəhbərliyilə fəth olunmuş Lələtəpə yüksəkliyinin davamı gələcək və düşmən əsarətində olan torpaqlarımızın hamısı işğaldan azad olunacaqdır. Onda Şikar Aslanov, Mübariz İbrahimov, Ruhin Qəhrəmanov və bütün şəhidlərimizin ruhları şad olacaqdır.

Sonda Muzeyin eksponatlarına və Milli Qəhrəmanlara ayrılmış guşəyə baxış keçirildi.

***Şakir ƏLİFOĞLU***





# 65 yaşın işığında

***"Kredo" qəzetinin baş redaktoru, şair-publisist Əli Rza Xələflinin AYB-nin "Natəvan" klubunda keçirilən yubiley tədbirini AYB-nin katibi şair İlqar Fəhmi giriş nitqi ilə açdı. Məclisi aparmaq üçün sözü filologiya elmləri doktoru Seyfəddin Rzasoya verdi.***

Əli Rza müəllimin ehtirasla danışması onun ruhunun kükrəyib daşdığı, ruhunun bədəninə sığmaması deməkdir. Bu gün biz bu tədbirdə onun obrazını sizinlə birlikdə yaradacağıq, - deyən aparıcı ilk olaraq sözü AMEA Folklor İnstitutunun direktoru, akademik Muxtar Kazımoğluna verdi.

- Ə.R.Xələfli öz üslubuna uyğun olaraq özünü ortaya qoyan sənətkardır. Ucqar bir rayondan məcburi köçkün düşüb, Bakıya gəldi, paytaxtda yaşayıb coşğun ürəklə fəaliyyət göstərdi, özünün möhürünü vura bildi. "Kredo" qəzeti vasitəsilə ayrı-ayrı adamların taleyi haqda yazdı, Azərbaycan alimi, yazıçısı, şairi, döyüşçüsü və s. haqda yazdı, onlara səhifələr ayırdı. Torpağa, insana sevgidən yazdı, beləcə, həm onları ictimaiyyətə təqdim etdi, həm də bu yolla özünü ədəbi mühitdə tanıtdırdı. Ə.R.Xələfli bu gün 65 yaşına əlidolu gəlib. Bu gün həm onun 7 kitabının təqdimatıdır. Bu, silsilə kimi səslənir. O, vətəndaş mövqeyilə çıxış edir, vətənin qəmxar şairi kimi, hətta Şakir Albalıyevin təbirincə desək, "Vətənin candaş şairi" kimi özünə dəyərli mövqe qazanıb. Mən Əli Rza müəllimi yubileyi münasibətilə bir daha təbrik edirəm, arzu edirəm ki, bu coşqu ondan son nəfəsinə kimi ayrılmasın, - deyən akademik M.İmanov yubilyarın ünvanına səmimi duyğularını dilə gətirdi.



Filologiya elmləri doktoru İslam Qəribli çıxışında Ə.R.Xələfli ilə keçirdikləri tələbəlik dövrünü xatırladıb dedi ki, o vaxtlar o, şeir yazmasa da, biz onu M.Müşfiqə bənzidib, ona şair deyərdik. İndi onun 40 kitabı çap olunub, şair-publisist, nasir kimi tanınır. O, Körpü həsrətindən yazır, onun yaradıcılığında Cənubi, Şimali Azərbaycana parçalanmış yaralı Xudafərin körpüsü var, Araz dərdi var. Onun "Od" romanı var, tarixi hadisələrlə mifik təfəkkürün vəhdəti işığında oxucunu cəzb edir. Ancaq onun ən böyük əsəri "Kredo"dur ki, indiki vaxtda qəzet çıxarmaq həm istedad, həm də qəhrəmanlıq tələb edir.

Ə.R.Xələflinin xarakteri, şəxsiyyəti bitkindir, müasir Azərbaycan bədii məkanında, ədəbiyyatda olduqca millidir, - deyən aparıcı S.Rzasoy sözü "Tənqidçinin azərbaycançılıq idealı" kitabı ilə bağlı fikir bildirmək üçün akademik Nizami Cəfərova verdi:

- Akademik Tofiq Hacıyev, professor Kamil Vəliyev, professor Qəzənfər Kazımov Qarabağa Cəbrayıl havası gətirdilər. Cəbrayıl həm də keçid zonadı: həm Qarabağ, həm Cənubi Azərbaycanla Şimali Azərbaycan, həm də Naxçıvan ərazisi üçün. Əli Rza müəllim belə bir mühitin yetirməsidir. Azərbaycançılıq idealı, düşüncəsi insanın ruhunda, qanında olmalıdır. Körpü, od, qan, ağrı və s. sözlər Ə.R.Xələflidə yeni məna verir. Həm də bu yaradıcılığın arxasında şəxsiyyət dayanır. "Kredo" kimi bizə yad olan sözü də o çıxartdığı qəzetin adı ilə bizə doğmalaşdırdı. Azərbaycançılıq idealı sadəcə bir söz deyil. Azərbaycançılıq gücünü səmimiyyətlə çatdırmaq üçün sözün bitkin miqyasından istifadə yolu ilə o, öz sözünü deyə bilir. O, yazıda da canlıdır. Onun yazısı da sanki özü kimi bizimlə canlı şəkildə danışır. Ə.R.Xələflinin ədəbiyyata gətirdiyi ideyalarını lakmus kağızı kimi ölçə bilirik. Bu gün Ə.Xələfli 65-ci baharını yaşayır və o, vücudnamələrdə deyildiyindən daha gəncdir, enerjilidir və ondan hələ bundan sonra da yeni-yeni yaradıcılıq uğurları, sənət nümunələri gözləyirik.



Cəbrayıl RİH başçısının birinci müavini, YAP rayon təşkilatının sədri Arif Fərzəliyevə söz verildi. Arif müəllim Cəbrayıl torpağından, Cocuq Mərcanlıdan məclis əhlinə salam gətirdiyini söyləyib, Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənovun təbrikini və göndərdiyi Fəxri Fərmanı alqış sədaları altında yubilyara çatdırdı.

Professor Qəzənfər Kazımov çıxışında Ə.R.Xələflinin G.V.Plexanov, V.Q.Belinski kimi dahi münəqqidləri vaxtında oxuyub mükəmməl ədəbi-nəzəri biliyə malik olduğunu diqqətə çatdırmaqla qeyd etdi ki, o, oxuduğu əsərlərdə elə incə məqamları aşkarlayıb tutur ki, heç bəlkə o incə çalarların - həmin əsərlərin müəlliflərinin özləri də bunun ciddi fərqində olmayıblar. Ə.R.Xəliflinin yaradıcılığında "Kredo" qəzetindən danışmamaq olmaz. Qəzet öz ətrafına ən gözəl ziyalıları toplayıb. Qəzet o ziyalıları, o ziyalılar da qəzeti məşhur ediblər.

Professor Qəzənfər Paşayevə söz verildi. O da öz növbəsində "Kredo" qəzetinə toxundu, publisistika, tənqid, ədəbiyyatşünaslıq nədən desən, bu qəzetdə görərsən. Qəzet elə-belə başa gəlmir. Yaradıcı kollektiv olmalıdır. Əli Rza Xələfli özünü elmə həsr etsəydi, o, böyük ədəbiyyatşünas olardı, çox işlər görərdi. Mən buna təəssüflənirəm. Mən onun iki kitabına ön söz yazmışam. Bayatılar kitabına, bir də Z.Yaqubun "Əbədiyyat dastanı"na həsr olunmuş "Əbədiyyət nəğməsi" kitabı. Onun zəngin təfəkkürü var, elmi, publisistikası bir-birindən güclü, əvəzolunmazdır. Bundan başqa, onun H.Kürdoğluya həsr olunmuş kitabının da adını ayrıca qeyd etmək gərəkdir.

Daha sonra qədim bir əfsanənin işartısı kimi tədbirdə iştirak edən Sovet İttifaqı Qəhrəmanı Qafur Məmmədovun qardaşı qızı Tamilla Məmmədzadə çıxış edib, "Söz və qan" kitabı haqda danışdı və yubilyara təşəkkür dolu təbriklərini çatdırdı.

Ə.R.Xələflinin "Bir ayrılıq odu var" kitabı haqda düşüncələrini bölüşmək üçün professor Təyyar Salamoğlu çıxış etdi: - Əsərin kompozisiyasını, süjet strukturunu tapmaq, ondan sonra əsəri təhlil etmək lazımdır. Strukturda Ə.R.Xələflinin öz sözü, tarixdən gələn söz və miflə bağlı fikirlər ayrıca öyrənməli, tədqiq edilməlidir, - deyərək yubilyarın yaradıcılıq qayəsini açıqlayıb, ümumi qənaətlərini bölüşdü.

Professor Şirindil Alışanlı: - İnsanda nə qədər enerji olar? Ə.R.Xələfli bir Yazıçılar Birliyinin işi qədər ədəbiyyata xidmət edir. "Kredo"da çıxan "Belinskiyə məktub" yazısında elə mühüm sosial təhlillərdən söz açılırdı ki 1984-cü ildə çıxan H.Kürdoğlunun "Durna köçü" dördlüklərdən ibarət kitabı haqqında Cəbrayılda çıxan "Kolxozçu" (indiki "Xudafərin") qəzetində məqalə yazmışdı. Ə.R.Xələfli, həmin Cəbrayıl torpağının sənə verdiyi enerji, yaradıcılıq həvəsi sənə halaldır

"Göy üzündə səs" kitabı ilə bağlı filologiya elmləri doktoru, yazıçı Elçin Mehrəliyevə söz verildi. Xələfləni 30 il əvvəl rayon mətbuatındakı çıxışından tanıyan alim qeyd etdi ki, indi də o yanğı ilə yazır, əzəli mövzulara sadiqliklə vulkan kimi püskürən enerji ilə yazıb-yaradır. Bundan başqa, redaktor kimi təşkilatçılıq bacarığı, müəlliflərlə münasibət qurmaq, sənətə, yaradıcı insanlara sevgi, hansı mövzuya müraciət edilsə, o mövzuda uğur qazanmaq qabiliyyəti Ə.R.Xələflinin istedadını göstərir.

Rübai şairimiz Oqtay Rza: - Köhnə Günəşli qalasından gəldim ki, Ə.R.Xələflinin əlini sıxam, məndən əvvəl alimlər, şairlər sözlərini dedilər. Onun poeziyası vaqon, alimliyi lokomotivdir, - deyərək adəti üzrə yenə bədiyə söylədi:

*Halal sərvətidi söz Xələflinin,*
*Yolu-əqidəsi düz Xələflinin.*
*Yaşın 80-ində, 90-ında da*
*Özünü şux görək biz Xələflinin.*

Şair Əkbər Qoşalı: - "Sona qalan dona qalar" deyiblər, mən də deyilən alqışlara qoşulub, bir daha yeganə mələk adını daşıyan rayonumuzda - Cəbrayılda görüşməyi və növbəti yubileyinin keçirilməyini arzuladı.

Yazıçı Meyxoş Abdulla: - Dağın əzəməti uzaqdan daha yaxşı görünür, Əli Rza müəllim susmağın da səsini eşidir, - deyib, onun haqqında dəniz-coşğunluğu, nefti - içinin bolluğu, burnu isə Abşeronun qartalıdır kimi maraqlı bənzətmə işlətdi.

Tədbirdə professor Himalay Qasımov, yazıçı-general Yasif Nəsirli, ilk poliqrafçı alim Şəddat Cəfərov, şair-ədəbiyyatşünas Sərvaz Hüseynoğlu, professor Mahmud Allahmanlı, şair Maşallah Məftun, tarixçi alim Xəliyəddin Dəstgiralıoğlu, filologiya elmləri doktoru Baba Babayev, yazıçı Elçin Hüseynbəyli, professor, texnika üzrə elmlər doktoru Saleh Taleh, şair Ələmdar Quluzadə, Musa Ələkbərli, Yusif Nəğməkar, Müşfiq Borçalı, Əvəz Süleyman, Elmira Aslanxanlı, texnika elmləri doktoru Fərzəli Həsənov, filologiya üzrə fəlsəfə doktoru Tariyel Abbaslı və başqaları çıxışlarında 65 illik yubileyi işığında Ə.R.Xələflinin ünvanına xoş sözlər səsləndirdilər.

Axırda yubilyar iştirakçılara minnətdarlıq duyğularını çatdırıb, 65 yaşı münasibətilə yazdığı şeirini oxudu.



Tədbirin bədii hissəsi Lökbatan qəsəbəsindəki "Qaradağ" şadlıq sarayında davam etdirildi.

**ALBALIYEV**

"Xudafərin harayından qalan mən!.."
XUDAFƏRİN

# Cocuq Mərcanlıda 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik günü və Yeni İl münasibəti ilə tədbir keçirilmişdir



(Əvvəli səh. 3-də)

Elə həmin il Ölkə Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə tarixən burada yaşamış dinc əhalinin öz doğma torpağına qayıtması üçün əsaslı yenidənqurma işləri aparılmışdır.

Həmçinin ailələrin sosial problemlərinin həlli istiqamətində bir sıra proqramlar uğurla həyata keçirilməkdə davam edir. Ölkə rəhbərliyi tərəfindən qaçqın və məcburi köçkün ailələrin problemləri daim diqqət mərkəzində saxlanılır.

Tədbirdə çıxış edən kənd sakinləri Ölkə Prezidenti cənab İlham Əliyevə onların problemlərinin həlli istiqamətində göstərdiyi diqqətə görə minnətdarlıqlarını bildiriblər.

Axırda Mədəniyyət və İncəsənət Universitetinin təşkilatçılığı ilə Yeni il şənliyi təşkil olunub, uşaqlara hədiyyələr təqdim edilib.



# TURKPA nümayəndə heyəti Cocuq Mərcanlıda



Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) nümayəndə heyəti noyabrın 27-də rayonun Cocuq Mərcanlı kəndinə səfər edib.

Səfər zamanı qonaqlar kənd ərazisini gəzib, işğaldan azad edildikdən sonra kənddə aparılmış yenidənqurma işləri ilə tanış olub, kənd sakinləri ilə görüşüblər.

Nümayəndə heyətinin üzvləri Novruz Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəbi, Şuşa məscidinin bənzəri olan kənd məscidi və digər infrastruktur obyektlərinə də baş çəkiblər.

*"Xudafərin"*

## RAMİZ XUDİYEV - 50



# ƏBƏDİYAŞARLIQ ÖRNƏYİ

Ömrümüzün hər günü tarixə dönür. Tarixə yazılan günlərin hamısı yaddaqalan olmur. Elə günlər var onlar unudulub gedir, elələri də var ki, onlar heç vaxt unudulmur, yaddan çıxmır. Belə günləri unudulmaz edən qəhrəmanlardır şəhidlər. Çünki bu dünyada hamımıza bəxş olunan bir ömür payı var. Ömür yolunu müəyyən müddət sonra başa vuracağıq. Bu mənada insanın dünya həyatına ən gözəl şəkildə əlvida deməyinin adıdır şəhid olmaq.

Allah, vətən və millət yolunda öz istəyi ilə canından keçməyə razı olan insanların fəth etdiyi ən yüksək, şərəfli zirvədir şəhid olmaq.Xalq tərəfindən qərinələr, əsrlər keçməyinə baxmayaraq əsla unudulmayan insanlardır şəhidlər. Canlarından keçməklə xalqın qəhrəmanlıq dastanını, azadlığını canı ilə qazanıb qanı ilə yazanlardır şəhidlər. Məhz onların canı və qanı hesabına qazandıqları azadlıq və müstəqillik xalq tərəfindən heç vaxt unudulmur. Ona görə ki, şəhidlər xalqın kimliyini, mənliyini qoruyan insanlardır.

Bu şəhidlərdən biri də Ramiz Süleyman oğlu Xudiyevdir. Dekabr ayının 3-də bu şəhid ellüluzun 50 yaşı tamam oldu. O, 1968-ci ildə Cəbrayıl rayonunun Daş Veysəlli kəndində anadan olub. 1987-1989-cu illərdə Macarıstan Xalq Respublikasında həqiqi hərbi xidmət keçib.Vətən torpağının müdafiəsinə- könüllü yollanıb.Tankçı olaraq döyüş yolu keçib. 15 avqust 1992-ci ildə Şişqaya əməliyyatı zamanı şəhid olub.



Bu münasibətlə şəhidin adını daşıyan Minbaşılı kənd tam orta məktəbində yubiley tədbiri keçirildi. Tədbirdə rayon ictimaiyyətinin nümayəndələri, şəhidin ailə üzvləri, məktəbin müəllim və şagird kollektivi iştirak edirdi. Tədbir öncəsi iştirakçılar Cəbrayıl Şəhidləri Abidə Kompleksinin, məktəbin həyətində şəhidlərin xatirəsinə ucaldılmış abidənin üzərinə gül-çiçək dəstələri qoydular. Məktəbin direktoru İsmayıl Quliyev tədbiri açaraq şəhidlərimizin, o cümlədən Ramiz Xudiyevin xatirəsinin daim əziz tutulduğundan, şağirdlərimizin vətənpərvərlik tərbiyəsində onlarla bağlı tədbirlərin əhəmiyyətindən danışdı. Şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edildi.

Tədbiri bu sətirlərin müəllifi davam etdirərək, birinci Qarabağ savaşı zamanı rayonumuzun müdafiəsində mərdliklə dayanmış Vətən oğullarından söz açdı. Aprel döyüşləri zamanı bu döyüş ənənələrimizin layiqincə davam etdirildiyindən danışdı.

Söz Cəbrayıl Rayon İcra Hakimiyyəti başçısının müavini Fəridə xanım İbayevaya verildi. O, yüzlərlə şəhid eloğlumuzun, o cümlədən Ramiz Xudiyevin ömür yolunun həmişə gənclərimizə örnək olacağına əminliyini ifadə etdi. Belə bir oğul Vətənə bəxş etdiklərinə görə şəhidin yaxınlarına, ailə üzvlərinə minnətdarlığını bildirdi. Belə tədbirlərin müntəzəm keçirilməsinin vacibliyini qeyd etdi.

Qarabağ müharibəsi veteranlarından Eldəniz Əhmədov, Əvəz Mönsümov, Sarvan Mahmudov, şəhidin qardaşı Ədalət Xudiyev, qardaşı oğlu Anar Xudiyev və başqaları çıxış edərək, şəhid haqqında xatirələrini danışdılar. Məktəb şagirdlərinin ifasında ədəbi-bədii kompozisiya nümayiş etdirildi. Şəhid Ramiz Xudiyev süfrə masası ətrafında da anıldı. Tədbirin sonunda xatirə şəkilləri çəkdirildi.



**HİDAYƏT HÜMBƏTOĞLU**

## Məktub almışıq

# Mən "Xudafərin" qəzetinin oxucusuyam

***Hörmətli Şakir Əlif oğlu, salam.***

***Bəri başdan bir cümlə ilə bildirim ki, qəzetiniz çox nəfis və oxunaqlıdır. Cəbrayıl rayon İcra Hakimiyyətinin orqanı olan "Xudafərin" qəzetinin 18 oktyabr 2018-ci il tarixli nömrəsində "Atasından görübgötürən, dayısına oxşayan oğul" başlıqlı yazını oxuyanda həm kədərləndim, həm də sevindim. Kədərləndim ona görə ki, Kəmaləddin Musayevlə olan gənclik xatirələrim artıq çox-çox uzaqlarda bizsiz qalıb. Sevindim ona görə ki, Prezidentimiz İlham Əliyevin rəhbərliyi sayəsində respublikamızda gözəl abı-hava yaranıb. Ayrı-ayrı rayonlarda, həmçinin Cəbrayıl rayonunda Kamal Həsənov kimi xalqını sevən, vətənə bağlı, hər bir qaçqın və məcburi köçkünün qayğısına qalan icra başçıları vardır. Başçı Kamal Həsənov haqqında rayon ictimaiyyətində çox müsbət, xoş fikirlər vardır. Sual olunar ki, kənar regionun sakini hardan bilər bunları. Xeyr, mən əlli ildən artıqdır ki, Cəbrayıl rayonuna K.Musayevin gözü ilə baxır və onun fikri ilə şərik oluram.***

Bu gün mən K.Musayevin vasitəsi ilə demək olar ki, "Xudafərin" qəzetinin oxucusuyam, rayonda gedən proseslərdən də xəbərdaram.

Əfsanəvi kəşfiyyatçı Rixard Zorge deyib: "Məndə nəsə vardır ki, məni başqalarından fərqləndirirdi". Bu deyimi əlli ildən artıq tanıdığım Kəmaləddin Musayev haqqında desək, səhv etməmiş oluruq. Bəs K. Musayevdə nədir onu başqalarından fərqləndirən? Ən əsası onun özünə və qarşısındakı insana hörməti, ictimaiyyət içərisində ləyaqətli davranışı bu kimi insani keyfiyyətlərin sayını onun haqqında xeyli artıq sadalamaq olar. Dəfələrlə olub ki, K.Musayevlə söhbətimiz əsnasında O, elə bir deyim deyir ki, nə qədər fikirləşirsən bu deyimi heç bir dahiyə aid edə bilmirsən, axırda belə qənaətə gəlirsən ki, bu, sırf onun özünə aiddir.

Görkəmli fransız yazıçısı Onore de Balzak deyib: "Şairlər doğulur, natiqlər yaranır". Lap cavan yaşlarında hiss edirdim ki, K.Musayev natiqdir, söz sahibidir. Mənim bu zənnim məni aldatmadı. Belə ki, 1980-ci ildə keçirilən rayonlararası müşavirədə Heydər Əliyev haqqında dediyi söz Heydər Əliyevin çox xoşuna gəlmişdi.

K.Musayevin söhbətlərinin əksəriyyəti doğulduğu yurda, el-obaya bağlılıq olduğundan, mən onunla bir gəzib-dolanırdım. Başqa rayonlardan olan tələbə yoldaşlarımız mənim Naxçıvandan olduğuma baxmayaraq, elə bilirdilər ki, mən də Cəbrayıldanam.

Bu gün də mən özümü mənən Cəbrayıl camaatı ilə bir sırada hiss edirəm. Arzusundayam ki, doğma torpaqlarımız işğaldan azad olsun, Cəbrayıl torpağında da o mehriban camaatının qonağı olum.

K.Musayev atası Həsən müəllim və dayısı Vahid İsmayılov haqqında xeyli söhbətlər etdiyindən elə bilirdim ki, bu insanları uşaq vaxtlarımdan tanıyıram. Bu səbəbdən Kəmaləddin müəllimə və eləcə də xatirələri işığında tanıdığım onun dayısı Vahid İsmayılov haqqında yazdığım şeirlərimi "Xudafərin"-in oxucularına da çatdırılmasını sizdən xahiş edirəm.

***Vahid İsmayılovun əziz xatirəsinə***

Yaxşılar yaxşısı ey gözəl insan,
Gedişin çox qəlbi dağlı eylədi.
Kədəri qəlblərə doldurub asan,
Sevincin qapısın bağlı eylədi.

Cəbrayıl, Zəngilan unutmur bir an,
Ağcabədiyə də çox oldun həyan.
Beyləqan adınla olmuşdu bəyan,
Dedilər Vahidin ağlı eylədi.

Hər əkin sahəsi bir balam dedi,
Hər bir əməkçiyə o salam dedi.
Zirvədən-zirvəyə bir yolam dedi,
Yolusa həm sollu, sağlı eylədi.

Yaşadı, yaşayır, yaşayacaqdır...
Ruhu hər tıfıla sığınacaqdı
Qədirbilənlərçün pirdi-ocaqdır
Pir qapısın açıq tağlı eylədi.

Bununçün sadəlik taledən yardı,
Sadə çobana da qayğısı vardı.
Elə ki el-oba isti olardı,
Qış aranlı yazı dağlı edərdi.

Ömürdə hamıya bu olan həyan,
Sir gəldi sir getdi olmadı bəyan.
Ay Paşa, daldada ev yıxan nadan,
Üzdəsə dilini yağlı eylədi.

***Hacı Kəmaləddin Həsən oğluna***

Mən hardan başlayım harda qurtarım,
Ay Hacı, mən səni tərənnüm edim.
Məslәkdə bütövüm, dövlətdə varım,
Yorulmam yolunda müdam yol gedim.

Ağsaqqal deyilib, övliya deyim,
Əməllə qazandın sən bu adları.
O Həcdə bəyazdan geymisən geyim,
Əqidən heç bilmək məlun yadları.

Sənə yer kürəsi bütöv əzizdir,
Əzizin əzizi Azərbaycandır.
Bu sevgi atadan qalan bir izdir,
Vərən məhəbbəti səndə hər andır.

Dahisən, özünün deyimlərin var,
Deyilmiş fikiri təkrar etmirsən.
Yaradan daima olub sənə yar,
Haq yolundan qeyri yolu getmirsən.

Vergili insansan, fərdsən sən özün,
Allahın verdiyi fərəhdi sənə.
Həyatda daima düz görüb gözün,
Dərgahdan uğurlar diləræm yenə.

Əllərin şəfadır,dilin təbibdir,
Səni duyanlara daim pənahsan.
Hər dostun deyir ki,mənə həbibdir,
Səninçün yaxşılıq xeyli çox asan.

Yaradan səbirli yaradıb səni,
Sən qəbil insanlar Ordan sevilər.
Zəkan hikmət ilə olubdu qəni,
Sənə bələd olan fikrimi bilər.

Narahat qəlblərə kəlmən təsəlli,
İnsanı sezirsən münəccim kimi.
Xeyir əməllərin yurdunda bəlli,
Sənsən tıfılların qəlbdə həkimi.

Xəbisdən, naqisdən xeyli kənarsan,
Məsləkin əqidən haqqın yoludur,
Vacib cumadasa daima varsan,
Qəlb evin zikirlə müdam doludur.

Qəlbimdə o qədər sənə sözüm var,
Bu beş-on kəlməmsə zərrəndir sənin.
Arzumdu Yaradan daim sənə yar,
Yolunda olmasın dumanın-çənin.



***Hacı Paşa Ağaoğlu,***
*İqtisadiyyat üzrə fəlsəfə doktoru,*
*Yazıçılar Birliyinin üzvü*

## XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ - 160

# Uzun yollar yolçusu

Mən onu uşaq yaşlarından tanıyıram. Mayası halal zəhmətlə yoğrulmuş bir ailədə dünyaya göz açıb. Atası Xanalı kişi, anası Gülü nənə Vətənə, millətə layiq övladlar böyüdüb, tərbiyə ediblər. El-oba zəhmətkeş bir ailənin üzvləri kimi tanıyıb onları. Bacardıqları işin qulpundan yapışaraq camaat arasında xətir-hörmət qazanıblar. Kəndin ictimai həyatında da həmişə fəallıq göstəriblər. Kənd klubunda fəaliyyət göstərən "Çeşmə" bədii özfəaliyyət kollektivinin ən fəal üzvlərindən biri idi o. Öz istedadını dram dərnəyinin fəaliyyətində daha yaxşı göstərə bilmişdi. Ayrı-ayrı tamaşaların hazırlanmasında yaxından iştirak etmiş, müxtəlif səpkili rollarda çıxışları maraqla qarşılanmışdı. Haqqında söz açdığım eloğlumuz Elman Xanalı oğlu Vəlixanovdur.

O, 1971-ci il sentyabrın 7-də Cəbrayıl rayonunun Daş Veysəlli kəndində anadan olub. Kənddəki orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə yollanıb. 1992-ci ildə sənədlərini Bakı Dənizçilik Məktəbinə verərək həmin məktəbə qəbul olunub. Elə həmin il Xətai rayon hərbi komissarlığı tərəfindən Azərbaycan milli ordusu sıralarına çağırılıb. Xidmətə Qubadlı rayonunda başlayıb.Qubadlının Saldaş, Göyyal, Çərəli kəndlərində yerləşən postlarda xidmət edib. Xidmətdə olduğu müddətdə Laçın rayonu istiqamətində gedən ağır döyüşlərdə iştirak edib. 1993-cü ildə Cəbrayıl özünümüdafiə batalyonuna göndərilib.Xidmətini kiçik qardaşı Elşənlə bir yerdə davam etdirib. Bir ailədən iki qardaşın eyni vaxtda döyüşən orduda xidmət etdiyi nəzərə alınaraq tərxis olunub. 1993-cü ildə təhsilini davam etdirmək üçün yenidən Dənizçilik Məktəbinə qayıdıb. Həmin il məktəbi bitirərək Xəzər Dəniz Gəmiçilik İdarəsində əmək fəaliyyətinə başlayıb. 1993-cü ilin noyabrında Ümummilli Liderimiz Heydər Əliyevin xalqa müraciətindən sonra könüllü olaraq Səbail rayon hərbi komissarlığına gələrək cəbhəyə yollanıb. Elman Vəlixanovun dediklərindən: "Səbail batalyonunun tərkibində Seyfəli poliqonunda bir ay təlim keçərək döyüş bölgəsinə yollandım. Füzuli rayonunun "Qarabağ" kolxozu ərazisinə gətirildik. Horadiz, Şükürbəyli,Qorqan, Aşağı Seyidəhmədli, Əbdürrəhmanlı, Qaraxanbəyli kəndləri uğrunda gedən ağır döyüşlərdə iştirak etmişəm. 1994-cü il mart ayının 7-də Aşağı Seyidəhmədli kəndinə ermənilərin ikinci hücumu zamanı ağır yaralandım. Müalicəmi Sumqayıt şəhərində alıb yenidən orduya həkim nəzarətinə qayıtdım. 1996-cı ildə ordu sıralarından tərxis olundum..."

Elman Vəlixanov həmin ildən Xəzər Dəniz Gəmiçiliyi İdarəsindəmatoris-matros olaraq əmək fəaliyyətini davam etdirdi. O, ikinci qrup Qarabağ müharibəsi əlilidir.



Böyük bir əmək kollektivinin üzvü olduğundan həmişə fəxrlə danışır. İdarə rəhbərliyi də həmişə Qarabağ veteranlarına və əlillərinə qayğı ilə yanaşır, onların ən zəruri ehtiyaclarını ödəməyə çalışır. Xəzər Dəniz Gəmiçiliyi İdarəsi fəaliyyətə başlamasının 160 illik yubileyini qeyd edir. Elman Vəlixanovun dediklərindən: "Gəmiçilərimiz dünyanın müxtəlif ölkələrinə uzaq səfərlərə gedirlər. İsrail, Mərakeş, Misir, Yunanıstan, İtaliya, İspaniya, Türkiyə, Ukrayna və bir çox başqa ölkələrə işimlə bağlı səfərlər etmişəm. Xəzər dənizində üzən gəmilərlə Xəzəryanı ölkələrdə - Rusiya, Qazaxıstan, Türkmənistan və İranda da olmuşam. Səfərlərimiz, əsasən, çətin hava şəraiti ilə müşaiyyət olunur. Dənizdə işləmək nə qədər maraqlıdırsa, bir o qədər də çətindir. Yaxşı deyiblər ki, dəniz cəsurları sevir. Yaxşı yadımdadır, 2001-ci ildə "General Şıxlınski" tankerində qəza baş verdi. Biz o zaman Türkmənistanın Krasnovodsk şəhərində idik. Qəzada 6 nəfərdən ibarət gəmi heyəti həlak oldu, mən isə ağır yaralandım. Televiziya kanallarından birində yayımlanan siyahıda dünyasını dəyişənlər sırasında mənim də adım var idi. Təbii ki, bu yanlışlıq tez bir zamanda aradan qaldırıldı. Amma təsəvvür edin ki, məni tanıyanlar, qohumlarım, ailə üzvlərim həmin anlarda hansı hissləri yaşadılar. Bax budur dənizçi həyatı...".



Çox fərəhli haldır ki, son beş ildə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinə həmyerlimiz Rauf Göyüş oğlu Vəliyev rəhbərlik edir. O, Çərəkən kəndində dünyaya göz açıb. İdarədə çox sayda həmyerlilərimiz çalışır. Uzaq səfərlər kapitanı Elxan Hacıyev hazırda gəmilərin təhlükəsizliyi şöbəsinin rəisi vəzifəsindədir.Əslən Qumlaq kəndindəndir. Daş Veysəlli kəndindən Kərimov Telman Pəhlivan oğlu uzaq səfərlər kapitanıdır. Matros Cəfər Əhmədov və Əhməd Əhmədov matorist, Alış Əhmədov, Malik Yaqubov mexanik, Mütəllim Vəlixanov aşpaz, Əzim Hüseynov təchizat zavodunda işçi olaraq çalışırlar. Hər bir dənizçi öz işinin öhdəsindən layiqincə gəlir.

Elman Vəlixanov boş vaxtlarını mütaliəyə sərf edir. Özü də bədii yaradıcılıqla məşğul olur. Özünü şair hesab etməsə də, şeirlər yazır. Öz düşüncələrini yazdığı şeirlərə köçürür və bundan mənəvi zövq alır. O, elinə, obasına bağlı insandır, Vətənini dərin məhəbbətlə sevir. Qeyd edir ki, əgər Ali Baş Komandanımız əmr verərsə, yenə də silaha sarılıb Vətənin müdafiəsinə qalxmağa hazıram. Elmanın şeir dəftərində aşağıdakı misralar diqqətimi cəlb etdi:

*Ayrılıb sahildən düzəldik yola,*
*Çətindir yolumuz, uğurlar ola.*
*Çevrilib baxıram hey sağa, sola,*
*Danışmır, danışam mən də dənizlə.*

*Yenə dalğaların coşan vaxtıdı,*
*Coşub sahilləri aşan vaxtıdı.*
*Mənim də səbrimin daşan vaxtıdı,*
*Danışmır, danışam mən də dənizlə.*

*Bir gözəl sahildə xəyala dalıb,*
*Nə vaxtdı gözləri yollarda qalıb.*
*Məni də dalğalar qoynuna alıb,*
*Danışmır, danışam mən də dənizlə...*

Elman Vəlixanov həm də gözəl ailə başçısıdır. 2001-ci ildə həmkəndlisi Rübabə xanımla ailə həyatı qurub. Bir oğul, bir qız atasıdır. Oğlu Nicat Bakı şəhəri 176 saylı tam orta məktəbin XI sinfində, qızı Nigar isə həmin məktəbin IX sinfində təhsil alır. Nigar Vəlixanlı Lütfü Zadə adına Məktəblilərarası I Məntiq Olimpiadasının qaliblərindən biridir. "Mən və mənim hüquqlarım" mövzusunda 10-13 yaş mərhələsi üzrə Yasamal rayon məktəbliləri arasında keçirilən rəsm müsabiqəsində fərqləndiyinə görə Fəxri fərmanla təltif olunub. İnanırıq ki, bu uğurlar davamlı olacaq.

Bu sətirləri qələmə alarkən, bəlkə də, Elman uzaq səfərlərdən birində olacaq. O, artıq 25 ildir ki, bu çətin, həm də şərəfli yolun yolçusudur. Bu yolun gedişi fərqli ünvanlara olsa da, qayıdışı Vətən ünvanlıdır. Doğmaları, əzizləri, ən başlıcası övladları və ömür-gün yoldaşı onun yolunu səbirsizliklə gözləyirlər. Bir ananın da gözləri yollara boylanır. Çıxdın yola, uğurlar ola, eloğlu! Yolun açıq, səfərin uğurlu olsun, uzun yollar yolçusu!

**Sentyabrın 26-da Milli Olimpiya Komitəsində Təhsil, Gənclər və İdman nazirlikləri, Milli Olimpiya Komitəsi, Azərbaycan Məktəb İdmanları Federasiyasının iştirakı ilə məktəblər arasında idman növləri üzrə respublika çempionatının keçirilməsi haqqında birgə əmr imzalanıb. Əmrə əsasən çempionatın əsasnaməsi və proqramı təsdiq olunub.**

# ÇEMPİONATIN RAYON MƏRHƏLƏSİ KEÇİRİLDİ



Birgə əmri Təhsil naziri Ceyhun Bayramov, Gənclər və İdman naziri Azad Rəhimov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Azərbaycan Məktəb İdmanları federasiyasının prezidenti Sevinc Hüseynova imzalayıb.



Məktəblər arasında respublika çempionatının keçirilməsində məqsəd ümumtəhsil məktəblərində təhsil alan şagirdlərin sağlam həyat tərzinə istiqamətləndirilməsi, onların asudə vaxtının səmərəli təşkili, idmana olan marağının artırılması, ümumtəhsil məktəblərininidman sahəsində sinifdənxaric və məktəbdənkənar fəaliyyətinin qiymətləndirilməsidir. Eyni zamanda birgə əmri imzalayan hər bir qurumun potensialından və koordinasiya imkanlarından istifadə etməklə çempionatın keçirilməsi nəticəsində idmanda kütləviliyin təmin olunması, yüksək nailiyyət və uğurların qazanılmasıdır.

2018-2019-cu tədris ili ərzində



keçiriləcək çempionatın əsasnamə və proqramına uyğun olaraq yarışlarda Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən bütün rayon və şəhər ümumtəhsil müəssisələrinin şagirdləri şahmat (2-4-cü siniflər), atletika (5-7-ci siniflər), voleybol (qızlar, 7-9-cu siniflər), basketbol (oğlanlar, 9-11-ci siniflər) idman növləri üzrə iştirak edəcəklər. Şahmat və atletika idman növü üzrə keçirilən yarışlar ölkədaxili xarakter daşıyır, voleybol və basketbol idman növləri üzrə keçirilən yarışlar isə məktəblərarası beynəlxalq yarışlara seçim mərhələsidir. Voleybol üzrə qalib məktəb komandası Xorvatiyanın Poreç, basketbol üzrə qalib məktəb komandası isə Yunanıstanın Heraklion şəhərində keçirilən məktəblərin dünya çempionatında ölkəmizi təmsil edəcək.

Bütün bunlar bu çempionatın nə qədər böyük əhəmiyyət kəsb etdiyini göstərir. Cəbrayıl Rayon Uşaq Gənclər İdman Şahmat Məktəbinin kollektivi də bu əmrdən irəli gələn vəzifələri müəyyənləşdirmiş, çempionatın rayon mərhələsinin keçirilməsi üçün hazırlıq işləri vaxtında aparılmış, müxtəlif idman növləri üzrə yarışlar yüksək səviyyədə təşkil olunmuşdur. Yarışların yüksək səviyyədə keçirilməsi üçün Cəbrayıl rayon icra hakimiyyətinin və rayon təhsil şöbəsinin diqqət və qayğısı xüsusilə qeyd olunmalıdır. Uşaq Gənclər İdman Şahmat Məktəbinin direktoru Muxtar Eyvazovun, yarışların baş hakimi İlham Babaşovun və hakimin köməkçisi Məmməd Məmmədovun, məktəbin müəllimləri Elçin Hüsüyevin, Barat İsgəndərovun, Əlizamin Həsənovun, Anar Muradovun yarışların təşkilində fəallığı diqqəti cəlb etmişdir.

Rayondaxili mərhələnin nəticələrinə görə basketbol (oğlanlar) üzrə 10 saylı tam orta məktəb I, 14 saylı tam orta məktəb II, 8 saylı tam orta məktəb III yeri tutmuşdur. Qızlardan ibarət voleybol komandaları arasında gərgin mübarizə belə nəticələnmişdir: 8 saylı tam orta məktəb I yer, 10 saylı tam orta məktəb II yer, İ. Tahirov adına Mehdili kənd tam orta məktəbi III yer. Atletika üzrə yarışlarda R.Xudiyev adına Minbaşılı kənd tam orta məktəbi (I yer), 10 saylı tam orta məktəb (II yer), Dəmşalaq kənd tam orta məktəbi (III yer) fərqlənmişdir. Şahmat üzrə yarışların yekununda İ. Tahirov adına Mehdili kənd tam orta məktəbi (I yer), 10 saylı tam orta məktəb, İ. Quliyev adına B. Mərcanlı kənd tam orta məktəbi qaliblər sırasında olublar.

Yarışların yekununda qaliblər diplomlarla mükafatlandırıldı və xatirə şəkilləri çəkdirildi.

*Səhifəni hazırladı: Hidayət Səfərli*

“Xudafərin harayından qalan mən!..”
XUDAFƏRİN

# Məktəb yetirmələri ilə tanınır

***Azərbaycanın Milli Qəhrəmanı Şikar Aslanovun adını daşıyan Süleymanlı kənd tam orta məktəbi məcburi köçkün düşdüyümüz ildən bir il sonra-1994-cü ildən öz fəaliyyətini bərpa eləyib. Sumqayıt şəhər Kimyaçılar qəsəbəsindəki Şüşə zavodunun binasında yerləşən məktəbə yolumu salmışdım. Direktorun kabinetinə daxil olduqda işgüzar bir ab-hava ilə rastlaşdım.***



Məktəbin direktoru Ələkbər Məhəmməd oğlu İsmayılov, məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini Pəri Əyyub qızı Xudiyeva, məktəbin sinifdənxaric və




məktəbdənkənar işlər üzrə direktor müavini Samirə Mustafa qızı Məmmədova məktəbin ümumi vəziyyətinə dair hansısa məsələnin müzakirəsini aparır, kağız üzərində deyilənlərlə bağlı qeydlər aparırdılar. Bu halı gördükdən sonra bir daha məktəbin uğurlarının məhz belə bir məsuliyyət yükünü çiyinlərinə götürmüş bu səmimi üçlük üzərində qazanıldığını yəqinləşdirdim. Hazırda 175 nəfər şagirdin təlim-tərbiyəsilə 29 müəllimin məşğul olduğu bu tədris müəssisəsindən 2016-cı ildə 675 balla Əhmədova Aygül Lətif qızı, 2017-ci ildə 642 balla Mirzəliyeva Vüsalə ali məktəbə daxil olduqları kimi, bu il də 6 nəfər məzundan 4-ü ali, 1-i orta ixtisas məktəbinə qəbul olmaqla (1 nəfər isə sənəd verməmişdir) məktəbin yüksək təhsil səviyyəsini nümayiş etdirmişlər: Albalıyeva Səma Səyyad qızı (641 bal), Musayev Rəşad Rahim oğlu (608 bal), Ələsgərova Arzu İzəddin qızı (408 bal), Əhmədova Elza Gəncalı qızı (358 bal) və Paşazadə Günel Əyyub qızı.

Əlbəttə, məktəbdə təhsilin yüksək səviyyədə olmasının əsas şərtlərindən biri də müəllimlərin pedaqoji ustalıqları ilə müəyyənləşir. Tarix müəllimləri Gülçin Tağı qızı Zamanlı, İlkin Vüqar oğlu Mədətov, İngilis dili müəllimləri Zərgül Famil qızı Əhmədova, Səbahət Əsgərova, biologiya müəllimi Pəri Vaqif qızı Hüseynova, dil-ədəbiyyat müəllimi Vəfa Arif qızı Məhidova, ibtidai sinif müəllimi Firuzə İbayeva və başqaları özlərinin pedaqoji fəaliyyətləri ilə rayonumuzun təhsilinə mühüm töhfələr verilməsində bilik və bacarıqlarını əsirgəmirlər. Bunun əyani nümunəsini siniflərə baş çəkərkən dərslərdə fəallıq göstərən şagirdlərin timsalında gördüm. 7-ci sinifdə biologiya dərsində Səkinə və Səma Kəlbiyevalar, Bahadur Kazımov, Asif Mustafayev, Gülnar Mikayılova, Şahmurad Hacıyev, 9-cu sinifdə Azərbaycan dili dərsində Elmil Əlinağıyev, Rəqsanə Cabbarlı, Gülnarə Mahmudova, Günay Eynalzadə, İlkin Hüseynzadə, Xanım Niftəliyeva, Xanım Səfərli, üçüncülərdən Aysel Əlizadə, Tural Əliyev, İslam Məmmədzadə, Aliyə Musayeva və başqalarının dərslərdəki fəallığı ürəkaçan xoş mənzərə yaradırdı. Əminlik yaradırdı ki, məktəblərinin adını daşıdığı Milli Qəhrəman Şikar Aslanovun döyüş cəbhəsindəki rəşadətini bu məktəblilər təhsil cəbhəsində göstərəcəklər... Axı məktəbin əsas gücü onun pedaqoji kadr potensialında olduğu kimi, bu potensialın göstəricisi də şagirdlərin bilik və bacarıqlarında üzə çıxır. Bəli, hər bir məktəb yetirmələri ilə tanınır.

*Əlifoğlu Şakir*

Vaxt nə tez gəlib keçdi, Cəlal həkim! 5 il bundan qabaq görüşmüşdük sizinlə. 65 yaşınızın işığında qəzetimizdə bir yazı da verdim. Onda fikirləşirdim ki, yəqin 70 illik yubileyinizi doğma Cəbrayılımızda keçirdərik. Amma çox heyif ki, hələ bu acı Vətən həsrətimizin ömrü uzanır. 70 yaşınızı da yenə doğma Bakımızda qeyd etmək məcburiyyətindəyik. Bu da bir qəzavi - qədərdir ki, alın yazısı kimi ömrümüzə-taleyimizə düşüb. Neyləmək olar ki? Taledən, qəza - qədərdən qaçmaq olmaz ki!...



# Salam olsun 70 yaşa!...

Qiyamət onda qopar ki, vətənin, doğulduğumuz yurdun-obanın hənirini almaq üçün ətəyindən tutmalı olacağımız adamlar olmasın!... Şükür olsun Allahın böyüklüyünə ki, belələri var və siz Cəlal həkim də - Babaşov Cəlal Maşallah oğlu da ətəyindən tutula bilən, ümid yeri bilib pənah gətirilə bilən həmin qənimət bildiyimiz adamlardansınız. Allah bu qəniməti bizə çox görməsin, daima var eləsin ki, biz də doğma yurdun ətirini-nəfəsini sizlərdən ala bilək.

Mən sizi Cəbrayıl rayon Mərkəzi Xəstəxanasında cərrahiyyə şöbəsinin müdiri olduğunuz dövrdən tanıyıram. Onda gənc idiniz, səsiniz-sorağınız rayonla bir olan tanınmış cərrah həkim idiniz. Mən o çağları xatırlayanda sizin simanızda və rayonumuzun baş həkimi Hüseyn Əhmədovun rəhbərliyi altında işləyən həkim kollektivinin timsalında nəinki təkcə Cəbrayıl rayonunu, bütövlükdə regionumuzu, respublikamızı şərəflə təmsil eləyən həkimlərin olduğunu əminliklə yəqinləşdirirəm. Mərkəz Bakıdan xeyli uzaqda olan bir rayonda adlı-sanlı, sənətinin vurğunu, peşəsinin ustadı olan həkim ordusu var idi...

Bunları əbəs yerə xatırlamadım. Gənclik illərinizi doğma Cəbrayılda qoyub gəldiniz. Məcburi köçkünlük illərində İrandan vurub Bakıdan çıxdınız, hər yerdə də şərəfli həkimlik peşənizi uğurla davam elətdirdiniz. İndi də peşənizin vurğunu kimi Bakı şəhərində həkim kimi fəaliyyət göstərirsiniz. Lakin siz təkcə həkim kimi yox, həm də əsil Cəbrayıllılara xas nəcib keyfiyyəti özünüzdə daşıyırsınız. Gəncliyinizi Cəbrayılda qoysanız da, humanizminizi, qayğıkeş simanızı daima öz canınızda-ruhunuzda yaşadırsınız. Allah-təala bu ruhu, bu canı daima var eləsin, Cəlal həkim. Gəncliyindən həkim-cərrah kimi, munis hisslərin daşıyıcısı kimi özünüzdə formalaşdırdığınız xarakteriniz bu gün artıq tam püxtələşmiş halda 70 yaşlı bir müdrikin təcəssümçüsü olaraq sizin nurlu simanızda qərar tutub. Mən o 70 yaşlı müdriki salamlayır, uzun ömür, can sağlığı və növbəti ad gününüzü doğma Cəbrayılımızda qarşılamağı arzulayıram! Allah tezliklə qismət eləsin!

*Şakir Albalıyev*

# RİYAZİYYAT GECƏSİ KEÇİRİLMİŞDİR



Son illər Azərbaycan təhsil sistemində əsaslı dəyişikliklərin aparılması təlim-tərbiyə prosesinin intensivləşdirilməsi, dünya təhsilinin qabaqcıl sahələrinə inteqrasiya



məktəblərimizin simasının köklü dəyişilməsinə gətirib çıxarmışdır. Nəticədə məktəblərimizin keyfiyyət baxımından yeni səviyyəyə çatması üçün zəmin hazırlamış oluruq. Bu baxımdan öz keçmiş ənənələrinə sadiq qalan Cəbrayıl maarifi, onun məktəbləri təhsilin keyfiyyətini daha da yüksətmək üçün təhsil sistemində tətbiq olunan metod və üsullardan bacarıqla istifadə edirlər.

Belə ki, Biləsuvar rayonu ərazisində salınmış qəsəbələrin hər birində müasir tipli məktəblər fəaliyyət göstərir. Bu məktəblər savadlı, təcrübəli, bacarıqlı müəllimlərlə təmin olunmuşdur. Həmin məktəblərdən biri də 2 saylı qəsəbədə fəaliyyət göstərən Ramiz Xuduyev adına Minbaşılı kənd tam orta məktəbdir. 1994 - cü ildən fəaliyyət göstərən bu məktəb öz ənənələri ilə rayon məktəbləri arasında fərqlənir. Bütün ixtisas müəllimlərilə təmin olunmuş məktəbdə savadlı və təcrübəli kadrlar fəaliyyət göstərir. Həmin müəllimlərdən biri Bakı Dövlət Universitetinin məzunu, təcrübəli riyaziyyat müəllimi Veysəlov Emin Məhəmməd oğludur. Məktəbin qabaqcıl riyaziyyat müəllimlərindən biri olan Emin müəllim məktəbdə təkcə dərsin deyib qurtarmaqla kifayətlənmir. O, eyni zamanda məktəbin ictimai işlərində, məktəb tədbirlərində yaxından iştirak etməklə yanaşı, bir sıra maraqlı tədbirlərin təşəbbüskarı və təşkilatçısı olur.

Bu yaxınlarda R. Xuduyev adına Minbaşılı kənd tam orta məktəbin akt zalında Emin müəllimin təşkilatçılığı ilə Cəbrayılın tanınmış riyaziyyat müəllimi olmuş Sahib Bayramovun xatirəsinə həsr olunmuş elmi, ədəbi-bədii “Riyaziyyat gecəsi” keçirildi. Gecədə riyaziyyata aid əyləncəli məsələlər, rəqəmlərin dili ilə riyazi atmacalar, şeirlər çox böyük marağa səbəb oldu. Riyaziyyatçı alim, akademik Əşrəf Hüseynovun adının verildiyi ”Əşrəf” komandası, ”Tusi” komandası və ”Qaus” komandaları arasında keçirilmiş bilik yarışması məktəb şagirdlərinin riyazi təfəkkürlərinin imkanlarından xəbər verirdi. Tədbirdə qonşu məktəblərin bir neçə müəllimləri qonaq qismində iştirak edirdilər. Tədbir yarışma qaliblərinin mükafatlandırılması ilə bitdi. Sonda R. Xudiyev adına Minbaşılı kənd orta məktəbin direktoru İ. Quliyev və 8 saylı




tam orta məktəbin direktoru R. Musayev ”Gecə”nin təşkilatçılarına təşəkkürlərini çatdırdılar.

**Mirzə MİRİMLİ**

## Cəbrayıl rayon prokurorunun 2019-cu ilin 1-ci rübündə yaşayış yerləri üzrə vətəndaşların qəbul vaxtları

| S/S | Yaşayış yerinin adı və qəbul yeri | Qəbul vaxtı | Qəbulu keçirən şəxs |
|---|---|---|---|
| 1. | Biləsuvar rayonu ərazisində məcburi köçkünlərin məskunlaşdığı 1 saylı qəsəbə | 18.01.2019-cu il Saat: 11:00 | Prokuror Maarif Hüseynov |
| 2. | Bakı şəhəri, Nərimanov rayonu (Cəbrayıl rayon İcra Hakimiyyətinin qərargahı) | 15.02.2019-cu il Saat: 11:00 | Prokuror Maarif Hüseynov |
| 3. | Cəbrayıl rayonu, Cocuq Mərcanlı kəndi | 15.03.2019-cu il Saat: 11:00 | Prokuror Maarif Hüseynov |
| 4. | Biləsuvar rayonu ərazisində məcburi köçkünlərin məskunlaşdığı 2 saylı qəsəbə | 29.03.2019-cu il Saat: 11:00 | Prokuror Maarif Hüseynov |

## Cəbrayıl RİH, YAP rayon təşkilatı və “Xudafərin” qəzeti

“Xudafərin” qəzetinin baş redaktor müavini **Hidayət Səfərliyə**, atası
**Hümbət Abdulkərim oğlunun**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

## Cəbrayıl RİH, YAP rayon təşkilatı və “Xudafərin” qəzeti

Feyziyev Yusif Ramazan oğlu, Məmmədova Ballı Yaqub qızı, Hüseynov Dayandur Pəhlivan oğlu, Hüseynov Xəyal Vaqif oğlu, Qarayev Ramazan Mustafa oğlu və Mustafayev Təbriz Ramazan oğlunun **vəfatlarından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.**

**Allah rəhmət eləsin!**

Baş redaktor:
Şakir Əlif oğlu
ALBALIYEV

Qəzet Ədliyyə Nazirliyində qeydə alınıb.
**H/h:55233080000**
**kod: 200888**
**VÖEN: 9900003611**
**M/h: 013010001031**
**Kapitalbankın Cəbrayıl filialı**
**VÖEN: 8200035441**
**Ünvan: AZ 1073, Bakı şəh.,**
Mətbuat prospekti, 529-cu məhəllə
“Azərbaycan” nəşriyyatı.
**Telefon:** (051) 441-15-82

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Materiallardakı faktların doğruluğuna müəlliflər cavabdehdir.

**Əlyazmalar geri qaytarılmır.**

Qəzet “Açıq Səma” qəzetinin kompüter mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında çap edilib.
**albaliyevshakir@gmail.com**
**albaliyevshakir@rambler.ru**
**Sifariş №: 3962**
**Tiraj: 1000**